# 2015-ci ilin birinci yarımili ərzində 2972 sahibkara 97 milyon manat güzəştli kredit verilmişdir

**(Əvvəli 3-cü səhifədə).**

Qeyd edilmişdir ki, ümumilikdə, indiyədək Şəki-Zaqatala iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 1810 investisiya layihəsinin maliyyələşdirilməsinə 93,9 milyon manat güzəştli kredit verilmiş, digər sahələrlə yanaşı, müasir texnologiyaların tətbiqinə əsaslanan taxıl anbarı komplekslərinin, cins iri buynuzlu heyvandarlıq komplekslərinin, quşçuluq fabriklərinin, üzümçülük, bağçılıq təsərrüfatlarının, ət və süd emalı, tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması və s. sahələr üzrə investisiya layihələri maliyyələşdirilmiş, 8800-ə yaxın yeni iş yerinin açılması imkanı yaradılmışdır.

İşgüzar forum çərçivəsində Qəbələ və ətraf rayonlardan olan 52 sahibkara 693 min manat güzəştli kredit verilmişdir.

Verilmiş kreditlər əsasən taxılçılıq, heyvandarlıq, üzümçülük və s. sahələrin inkişafına yönəldiləcək. Bu kreditlərin reallaşdırılması hesabına 70-dən çox yeni iş yerinin açılması mümkün olacaq.

Tədbirdə sahibkarların rəy və təklifləri dinlənilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

Tədbiri R. Əhmədov yekunlaşdırdı.

**O. MƏMMƏDOV.**

# Taxıl biçini davam edir

Qəbələdə taxıl biçini müvəffəqiyyətlə davam edir. Taxılçılıqla məşğul olan fermerlər və torpaq istifadəçiləri zəmilərdən məhsul yığımı üçün keçən əlverişli hava şəraitindən maksimum istifadə edir və yığım kampaniyasını tez və itkisiz başa çatdırmaq üçün səylərini günbəgün artırırlar.




Rayon Statistika idarəsindən redaksiyamıza daxil olan bilgiyə görə iyun ayının 29-dək 6.890 hektar arpa sahəsinin məhsulu toplanmış, hər hektardan 27,6 sentner arpa, 5945 hektar buğda sahəsi biçilmiş, hər hektardan 28,2 sentner buğda hasil olunmuşdur.

Taxıl biçinində Düzyengicə ərazisində yerləşən kənd əməkçiləri irəlidə gedirlər. Buna Bayramkoxalı, Hacıallı, Savalan, Quşlar, Kürd, Yeni Dizaxlı, Zalam və digər kəndlərdə fəaliyyət göstərən taxılçılar misal ola bilər. Adları çəkilən kəndlərin taxılçıları 70-80 faizdən çox sahələrin məhsulunu toplamışlar və nəzərdə tutulandan xeyli çox məhsul istehsal ediblər. Taxıl toplanışında «Aqrosevis» müəssisəsinin Qəbələ filialının mexanizatorları xüsusi fədakarlıq göstərirlər. Onlar həm işin sürətinə, həm də məhsulun itkisiz yığılmasına daha çox əhəmiyyət verirlər. İşin gedişi göstərir ki, zəmilərdən taxıl yığımı kampaniyası iyul ayının birinci ongünlüyün sonunadək başa çatdırılacaq.

**Aslan CƏLİLOV.**

# Peşəyə yol buradan başlayır

Ölkəmizdə fasiləsiz təhsil sisteminin ayrılmaz bir hissəsi olan peşə təhsili müəssisələrinin inkişafı daim dövlətin diqqət mərkəzində olmuş və bu təhsil sistemi ölkənin sosial-iqtisadi, mədəni- siyasi həyatında həmişə fəal rol oynamışdır. Çünki keyfiyyətli kadr hazırlığı prosesi əhalinin savadlılıq səviyyəsinin yüksəldilməsi ilə yanaşı, iqtisadiyyatın inkişafı, ölkəyə investisiya axınının artması və son nəticədə əhalinin sosial rifahının yüksəlməsi ilə birbaşa bağlıdır.

Son zamanlar əmək bazarlarında baş verən dəyişikliklər işçiyə qoyulan tələblərin də dəyişməsinə səbəb olmuşdur. Belə ki, əvvəlki illərə nisbətən sənayenin daha çox avtomatlaşdırılmasını, yeni növ xidmətlərin və istehsal sahələrinin yaradılmasını nəzərə alaraq bu gün işçidən fiziki güc, qüvvə ilə yanaşı yaradıcılıq, təşəbbüskarlıq, innovativ yanaşmanın da olması tələb olunur. Ölkə başçısının peşə təhsilinə göstərdiyi qayğı və diqqətin nəticəsində son illər bu təhsil müəssisələrində artıq fəhlə kadrları yox, yeniləşməkdə olan iqtisadiyyatın tələblərinə uyğun rəqabət qabiliyyətli, çevik usta və sənətkarların hazırlanması işi aparılmağa başlamışdır. Odur ki, bu gün peşə təhsili müəssisələri qarşısında qoyulan ümdə vəzifələrdən biri yüksək ixtisas dərəcəsinə malik olan, rəqabətqabiliyyətli sənətkar hazırlığına nail olmaqdır.

İlk peşə-ixtisas təhsili təhsil sisteminin əsas istiqamətlərindən biri olmaqla, cəmiyyətin sosial-mədəni və iqtisadi inkişafında fərdlərin iştirakını təmin edir, onların ətraf mühitə təsir etmək imkanlarını artırır, insanları yeni bilik və bacarıqlara yiyələnməyə istiqamətləndirir, peşəkar fəaliyyətdə davamlı inkişafa nail olmaqda onlara real köməklik göstərir.

Dərslərin yeni təlim texnologiyalarına uyğun aparılması, nəzəriyyə ilə praktikanın əlaqələndirilməsi şagirdlərin ixtisasları daha yaxşı mənimsəməsinə stimul yaradır.

Respuiblikanın hər yerində olduğu kimi hazırda rayonumuzda da quruculuq-abadlıq işləri gedir. Rayonun əmək bazarında istehsal və müxtəlif təyinatlı müəssisələrin sayı durmadan artır və bu müəssisələrdə öz işini bilən rəqabətqabiliyyətli gənc və bacarıqlı sənətkarlara ehtiyac vardır.

Bu baxımdan Qəbələ Peşə məktəbi yeni təlim metodlarına əsaslanaraq fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışır. Son illər dövlətin peşə təhsilinə göstərdiyi qayğı və diqqətin nəticəsidir ki, məktəbə müraciət edənlərin sayı ilbəil artmışdır. İxtisas diplomları alanlar rayonun müxtəlif istehsal müəssisələrində işlə təmin olunur. Bu gün bacarıqlı işçiyə hər yerdə ehtiyac vardır. Təsadüfi deyil ki, şagirdlərimizin xeyli hissəsi praktikada olduğu müddətdə öz bacarıq və qabiliyyətlərini göstərərək artıq daimi iş yerlərini müəyyənləşdirmişlər.

2015-2016-cı tədris ilində məktəbdə tam orta təhsil bazasından-əməliyyatçı-mühasib, kompyuter operatoru, çilingər-santexnik, traktorçu-maşinist, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, telefon rabitəsi və radiolaşdırmanın xətt qurğularının elektromontyoru, ümumi orta təhsil bazasından tikiş istehsalatı-dərzi və elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru ixtisasları üçün şagird qəbulu planlaşdırılır. Növbəti tədris ilində rayonun əmək bazarının tələbatı nəzərə alınaraq məktəbdə ödənişli əsaslarla qısamüddətli kursların fəaliyyəti də nəzərdə tutulmuşdur.

Yeni tədris ili üçün rayonun "Qəbələ Aqrar Tikinti" ASC, Qəbələ Suvarma Sistemləri idarəsi, Qəbələ Telekommunikasiya qovşağı, Qəbələ Su-Kanal İdarəsi, Qəbələ Kommunal Müəssisələri Kombinatı, "Qəbələnd" İstirahət Parkı, Qəbələ Konsrev Zavodu, Qəbələ Elektrik Şəbəkəsi və digər müəssisələr ilə müqavilələr bağlanmışdır.

Ümidvarıq ki, məktəbin mühəndis-pedoqoji işçiləri dövlətimiz tərəfindən bizə göstərilən etimadı doğruldacaq, işlərini günün tələbləri səviyyəsində quracaqlar.

**Azad MƏMMƏDOV,**
**peşə məktəbinin direktoru.**

# Əmanətlərin faizləri aşağı salınıb

Mərkəzi Bankın qərarına əsasən, kommersiya bankları xarici valyutada yerləşdirilən əmanətlər üzrə faiz dərəcəsini aşağı salıb. Bundan başqa banklara dollar əmanəti üzrə yerləşdirilən depozitlərə verilən dividentlər 4-8 faiz civarında olacaq. Halbuki 2015-ci ilin mart ayından başlayaraq vətəndaşların dollar əmanəti üzrə yerləşdirdiyi vəsaitlərə 11-14 faiz dərəcəsi ilə divident ödənilirdi. MB-nin bu qərarından sonra banklardakı əmanətlərin ən yüksək faizləri manat depozitləri olacaq. Belə ki, manatla yerləşdirilmiş əmanətlərin dividentliyi 10-12 faiz təşkil etməkdədir.

Dollar və avro əmanətləri üzrə faizlərin aşağı salınması banklara manat depozitlərini cəlb etmək əhalini bu prosesə həvəsləndirmək məqsədi daşıyır. Son 5 ayda bank depozitlərinin strukturunda əmanətlərin əksər hissəsinin birbaşa dollara yerləşdirilməsi və depozit portfelində manat kütləsinin azalması hökuməti bu addımı atmağa vadar edir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, son 3 ayda əmanətlərin çəkisində manat vəsaitlərinin payının 2 dəfə azalması, dollar depozitlərinin isə 2,5 dəfə artması qeydə alınıb. Devalvasiyadan sonra manatın ucuzlaşacağından ehtiyat edən vətəndaşlar əmanətlərini dollarda yerləşdiriblər ki, bu da banklardakı əmanətlərin 70 faizinin xarici valyutaya çevrilməsinə səbəb olub. Banklarda manat kütləsinin azalması manatla kredit verilməsi imkanlarını da çətinləşdirib. Bankların bir çoxu manatla kredit verilməsini məhdudlaşdırıb, bir neçə bank isə ümumiyyətlə, manatla kredit verməyi dayandırıb. Hazırda mövcud qərar, xarici valyutada yerləşdilən əmanətlərin illik faiz dərəcələrinin aşağı salınması insanların yenidən manata üstünlük verilməsinə səbəb ola bilər. İnsanlar dollarla nisbətdə daha yüksək gəlir gətirdiyindən əmanətlərini milli valyutaya yerləşdirə bilərlər. Bu isə bankların manat ehtiyatlarının həcminin artmasına və manat kreditləşməsi əvvəlki tempə qayıtmasına imkan yaradacaq.

**Sahib SƏLİMOV,**
**Kapital bank ASC-nin Qəbələ filialının müdiri.**